http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. № 20 (1595) 30 noyabr 2014 - cü il Qiyməti 40 qəpik

# Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin təhsil nazirlərinin üçüncü görüşünün iştirakçılarına

**Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin təhsil nazirlərinin üçüncü görüşünün iştirakçılarına məktub göndərib.**



**Məktubda deyilir:**

*"Hörmətli görüş iştirakçıları!*

*Əziz qonaqlar!*

*Sizi Bakı şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin təhsil nazirlərinin üçüncü görüşünün öz işinə başlaması münasibətilə təbrik edir, hər birinizə ölkələrinizin gələcəyi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.*

*Türkdilli ölkələrlə əməkdaşlığın daim yüksələn xətlə inkişaf etdirilməsi Azərbaycan dövləti üçün həmişə mühüm əhəmiyyət daşımışdır. Əməkdaşlıq Şurası çərçivəsində birgə həyata keçirilən çoxsaylı layihələr ölkələrimiz və xalqlarımız arasında tarixi-mədəni əlaqələrin dərinləşməsinə xidmət göstərir. Əsrlər boyu formalaşmış ənənələrimizin gələcək nəsillərə layiqincə çatdırılmasında təhsilin misilsiz rolunu nəzərə alaraq bu sahədə aparılan siyasəti təqdirəlayiq hal kimi yüksək qiymətləndirirəm. İnanıram ki, artıq müntəzəm şəkil alan görüşləriniz dostluq və qardaşlıq münasibətlərimizin daha da genişlənməsi baxımından yeni imkanlar yaradacaqdır.*

*Son illər ərzində Türk Universitetlər Birliyinin qurulması, Türk Akademiyasının təsis olunması və eləcə də bu qəbildən digər müştərək layihələr türkdilli ölkələrin əməkdaşlığının yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirir. Hazırda ölkəmizdə təhsil sahəsində islahatların "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq reallaşdırılması keyfiyyətcə yeni mərhələnin başlanmasının bariz nümunəsidir. Qardaş türkdilli dövlətlərin bu istiqamətdə nailiyyətlərinin, müsbət təcrübələrinin öyrənilməsinin tərəflər üçün faydalı olacağına və ölkələrimizin təhsil sisteminə layiqli töhfələr verəcəyinə əminəm.*

*Ümidvaram ki, görüş zamanı müzakirə olunacaq problemlər, aparılacaq fikir mübadiləsi və qəbul ediləcək qərarlar ölkələrimiz arasında təhsil üzrə əməkdaşlığın yeni inkişaf perspektivlərini müəyyənləşdirərək cəmiyyətlərimizin daha da yetkinləşməsi istiqamətində əhəmiyyətli addım olacaqdır."*

## BU SAYIMIZDA




2013-2014-cü tədris ilində Tibb Universiteti tələbələrinin istehsalat təcrübəsinin yekunları müzakirə edilib 2



MÜŞAVİRƏDƏ AKTUAL MƏSƏLƏLƏRƏ TOXUNULDU 5

Bilik Fondu gələcəyin cərrahları və memarları üçün təqdimat keçirib 4

ATU-nun Tədris Cərrahiyyə Klinikasında süni mayalanma şöbəsi açılacaq



Daşkənd Tibb Akademiyasının rektoru ATU-nun qonağı oldu 3




ATU-da «Aktiv Tibb Tələbəsi Proqramı» layihəsinin tədbiri keçirildi 3

BÖYÜK ELMİ ŞURADA

# 2013-2014-cü tədris ilində Tibb Universiteti tələbələrinin istehsalat təcrübəsinin yekunları müzakirə edilib

**Noyabrın 24-də Böyük Elmi Şuranın növbəti yığıncağı oldu. Yığıncağı universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov açaraq əvvəlcə mikrobiologiya kafedrasının professoru, innovasiya şöbəsinin müdiri Akif Qurbanovu 50 illik yubileyi münasibətilə təbrik etdi. Sonra gündəlikdə duran məsələləri diqqətə çatdıraraq “2013-2014-cü tədris ilində Tibb Universiteti tələbələrinin istehsalat təcrübəsinin yekunları” barədə hesabat məruzəsi ilə çıxış etmək üçün sözü istehsalat təcrübəsi dekanı, dosent Şəfa Əliyevə verdi.**



Məruzəçi müvafiq fakültə və kurs tələbələrinin 2013/2014-cü tədris ilində qış və yay imtahan sessiyalarından sonrakı peşə təcrübəsi haqqında ətraflı məlumat verərək qeyd etdi ki, istehsalat təcrübəsinin keçirilməsinə tədris hissəsinin rəhbərliyi ilə fakültələrin və peşə təcrübəsinin dekanlıqları, eləcə də hərbi tibb fakültəsi də daxil olmaqla 31 aidiyyatı olan kafedra məsuliyyət daşıyırlar.

Hərbi tibb fakültəsində 5 nəfər t/x polkovnik-leytenantı, 2 nəfər t/x mayoru, 1 nəfər t/x polkovnik-mayoru, 5 nəfər mayor, 2 nəfər baş gizir, 2 nəfər t/x polkovniki, 1 nəfər kapitan, 2 nəfər hərbi cərrahiyyə kafedrasının müəllimi dinləyicilərin ixtisas və qoşun təcrübəsinə rəhbərlik etmişlər.



2013-2014-cü tədris ilində 77 müəllim yay və qış peşə təcrübəsinin keçirilməsinə rəhbərlik etmişdir. Onlardan 3 nəfəri professor, 19 nəfəri dosent, 7 nəfəri baş müəllim, digərləri isə assistentlərdir.

Keçən tədris ilində təcrübənin yekunlarının Böyük Elmi Şurada müzakirəsi zamanı hörmətli rektorumuz akademik Ə.Əmiraslanovun peşə təcrübəsi dekanlığına bir sıra ciddi tapşırıqlar verdiyini vurğulayan dekan qeyd etdi ki, tələbələrin xarici ölkələrdə, xüsusən Türkiyə respublikasında istehsalat təcrübəsi keçməyləri praktikasının daha da genişləndirilməsi, təcrübə başlayana qədər rəhbərlərlə seminar müşavirələrinin keçirilməsi kimi məsələlər qarşımıza əsas vəzifə kimi qoyulmuşdur. Məhz bunun nəticəsidir ki, cari tədris ilində xaricdə təcrübə keçmək üçün göndərilən tələbələrin sayı xeyli artmışdır.

Hər iki müalicə fakültəsinin III kurs tələbələrindən 148 nəfər tələbə təcrübəni Türkiyədə, 9 nəfər Almaniyada keçmişlər.

Azərbaycan Tibb Universiteti ilə Seçenov adına I Moskva Dövlət Tibb İnstitutu arasındakı müqaviləyə əsasən 10 moskvalı tələbə təcrübəni ATU-nun Tədris Cərrahiyyə Klinikasında, bizim universitetin 10 nəfər tələbəsi isə Moskvada keçiblər. Moskvalı tələbələr təcrübə müddətində universitet rəhbərliyinin, cərrahiyyə klinikasının rəhbərliyinin diqqətindən və qayğısından, yaradılan şəraitdən olduqca razı qalıblar. Təcrübə müddətində tələbələr Heydər Əliyev Mərkəzində, İçərişəhərdə, Mərdəkan Dendrarisində olublar.

Sözünə davam edən natiq keçən tədris illərində olduğu kimi, aprel ayında müalicə-profilaktika və pediatriya fakültələrinin V kurs tələbələri üçün qruplara sorğu anketləri paylandığını və tələbələr arzuladıqları rayonları bildirdikdən sonra əmr tərtib edildiyini diqqətə çatdırdı. Bildirdi ki, V kurs tələbələrindən cəmi 120 tələbə istehsalat təcrübəsini Bakı şəhərində, qalanları isə respublikanın mərkəzi rayon xəstəxanalarında və müalicə diaqnostika mərkəzlərində keçiblər.

ATU-nun Stomatoloji klinikasının rəhbərliyi ilə bərabər tələbə çoxluğunu nəzərə alaraq növbəli qrafikin tutulması, ATU-nun onkoloji klinikasından müalicə-profilaktika, tibbi-profilaktika və tibbi-biologiya fakültələri tələbələrinin təcrübə bazaları kimi istifadə ediləcəyi, bir sıra özəl tibb müəssisələri ilə təcrübə keçmək məqsədilə qeyd-şərtsiz müqavilələrin bağlanması və digər məsələlər hazırlıq dövründə görülən işlərdir.

“Peşə təcrübəsinin gedişində, ona nəzarət edilməsində öz işimizdən razı qala bilmərik, heç şübhəsiz təcrübənin təşkili, keçirilməsi məsələlərində müəyyən çatışmazlıqlar var”-deyən Şəfa Əliyev bu çatışmazlıqları aradan qaldırmaq üçün təkcə dekanlığın deyil, təcrübənin keçirilməsinə rəhbərliyə tövsiyə olunmuş əməkdaşların da öz işlərində müəyyən dönüş yaratmasının vacibliyini önə çəkərək təcrübənin keyfiyyətini yüksəltmək üçün elmi şura üzvlərindən əməli təkliflər gözlədiyini söylədi.



Məruzə ətrafında çıxış edən kafedra müdirləri İbadulla Ağayev, Amalya Əyyubova, Vəsadət Əzizov, Elmira Əliyeva, Paşa Ağayev və Məhbubə Vəliyeva hesabatı qənaətbəxş qiymətləndirərək tələbələrin peşə təcrübəsi ilə bağlı fikirlərini söylədilər, təkliflərini irəli sürdülər.

Müzakirələrə yekun vuran akademik Əhliman Əmiraslanov nəzəri biliklərin təcrübədə möhkəmləndirilməsinin əhəmiyyətinə diqqət yönəldərək bu sahədə mövcud olan problemlərin həlli yollarından danışdı: “Tədrisin, bütövlükdə mütəxəssis hazırlığının əsas vacib sahələrindən biri də təcrübədir. Bir vaxtlar bizdə bu sahə çox çətin bir vəziyyətə düşmüşdü. Stomatoloji poliklinikalar, apteklər hamısı özəlləşdirildi, tələbələri təcrübəyə göndərməyə bir yerimiz qalmadı. Xüsusilə terapevtik, cərrahi yönümlü xəstəxanalar təmirə dayandığından böyük çətinliklərlə üzləşdik. Əczaçılıq fakültəsinin təcrübəsi ilə əlaqədar problem bizi daha çox narahat edirdi və problemin tezliklə həll olunacağına əmin deyildik. Açığını deyim ki, hal-hazırda bu sahədə xeyli irəliləyişimiz var. Fakültənin dekanı, professor Tahir Süleymanov fəaliyyətə başlayandan ölkəmizdə əczaçılıq sənayesi ilə məşğul olan fabriklərlə, müəssisələrlə əlaqə yaratdı. İndi heç bir vəsait ödəmədən həmin bazalardan istifadə edirik. Stomatologiya fakültəsində isə bu problem öz həllini Stomatoloji klinikamız istifadəyə verildikdən sonra tapdı. Orada tədris mərkəzinin açılması da işimizə çox yarıyır. Rayonlarla bağlı deyilən fikirlərin çoxu ilə mən də razıyam. Artıq universitetimizin nəzdindəki terapevtik, cərrahi, stomatoloji və onkoloji klinikaların bazalarında tələbələrin təcrübə keçməsi üçün yaradılan şərait qənaətbəxşdir. Gələcəkdə öz klinikalarımızın gücündən maksimum istifadə etməliyik ki, müəllimlərin, nəzarətçilərin rayona göndərilməsinə ehtiyac qalmasın. Əlbəttə, onu demək istəmirəm ki, tələbələri xarici ölkələrə təcrübəyə göndərməyək. Hesab edirəm ki, bu, vacibdir və beynəlxalq əlaqələrimiz mövcuddur. Türkiyə universitetləri ilə bağladığımız müqavilələrin hər birinə tələbələri təcrübəyə göndərmək barədə bənd də əlavə olunub”.



Tələbələrin öz hesablarına təcrübəyə göndərilməsi məsələsinə də toxunan rektor xaricə gedən tələbələrin seçimində diqqətli olmağı tövsiyə etdi.

Müxtəlif məsələlərin müzakirəsi zamanı universitetin tədris hissəsinin müdiri, dosent Nəsimi Qasımov Azərbaycan Respublikası Nazirlər kabinetinin 24 oktyabr 2014-cü il tarixli 342 saylı qərarına uyğun olaraq 2015-ci ildə Bakı şəhərində I Avropa Oyunlarının keçirilməsi ilə əlaqədar Bakı şəhərində yerləşən bütün təhsil müəssisələrində tədris prosesi və imtahan sessiyasının 2015-ci il may ayının 31-dək başa çatdırılacağını dedi. Bildirdi ki, Bakı şəhərində yerləşən ali və orta ixtisas təhsili müəssisələrində nəzəri təlim müddətində İmtahan sessiyasına ayrılmış 5 həftənin 3 həftəyə, qış tətilinin isə 2 həftədən 1 həftəyə endirilməsi haqqında qərar qəbul olunub və bu qərarın icrası universitetlərin özünə tapşırılıb. Rektorumuzun imzaladığı əmrə əsasən payız semestrinin imtahan sessiyası 29 dekabrdan 18 yanvara qədər, qış tətili 19 yanvardan 25 yanvara qədərdir. 26 yanvardan başlayacaq yaz semestrinin imtahan sessiyası 11-31 may arasında olacaq.

Böyük Elmi Şura universitetin “Nümunəvi nizamnamə” layihəsini təsdiqləməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

# ATU-nun Tədris Cərrahiyyə Klinikasında süni mayalanma şöbəsi açılacaq



**Gələn ildən etibarən Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında süni mayalanma əməliyyatları icra olunacaq.**

Bu barədə noyabrın 25-də ATU-da Türkiyədəki Amerika Xəstəxanasının nümayəndələri ilə keçirilən görüşdə ilkin razılıq əldə olunub. Rektor, akademik Əhliman Əmiraslanov qonaqlarla görüş zamanı Azərbaycanda süni mayalanma ilə bağlı yüksək ixtisaslı mütəxəssislərə böyük ehtiyac olduğunu vurğulayıb. Qeyd olunub ki, ölkəmizdə süni mayalanma yolu ilə övlad sahibi olmaq arzusunda olan ailələr çoxdur.

Türkiyə nümayəndə heyətinin rəhbəri, professor Bülent Urman isə ATU-da təkcə süni mayalanma əməliyyatlarının keçirilməsində deyil, həm də tədris sistemində iştirak etmək istəklərini açıqlayıb. Türkiyəli mütəxəssislər tərəfindən doğuşla bağlı rezidentlərə mühazirə oxunması barədə təklif də səsləndirilib.

Görüş zamanı ATU-nun Tədris Cərrahiyyə Klinikasında 2015-ci ilin ilk aylarından etibarən süni mayalanma şöbəsinin yaradılması haqda ilkin razılıq əldə olunub. Qonaqlar artıq klinikadakı şəraitlə tanış olduqlarını, burada yüksək keyfiyyətli əməliyyatların aparılması üçün hər cür şərait olduğunu vurğulayıblar. İki tərəf arasında qarşılıqlı əməkdaşlığa dair sazişin hazırlanması qərara alınıb.

# Daşkənd Tibb Akademiyasının rektoru ATU-nun qonağı oldu

**Noyabr ayının 21-də ATU-nun rektoru, akademik Əhliman Əmiraslanov Bakıda səfərdə olan Daşkənd Tibb Akademiyasının rektoru Şavkat Karimovu qəbul edib.**



Görüş zamanı akademik Ə.Əmiraslanov qonaqlara ATU-nun fəaliyyəti, universitet nəzdindəki klinikalar, mövcud tədris sistemi haqqında ətraflı məlumat verib. ATU-nun müasir tibbi avadanlıqlarla təchiz olunmuş 4 klinikasının fəaliyyət göstərdiyi bildirilib. Qeyd olunub ki, klinikalarda tələbələr və rezidentlərin praktiki vərdişlərə yiyələnməsi üçün hər cür şəraiti olan xüsusi tədris mərkəzləri yaradılıb. Bununla yanaşı, bu müəssisələrdə həm də əhaliyə keyfiyyətli tibbi xidmət göstərilir. Hər bir klinika öz profili üzrə ən son model tibbi avadanlıqlarla təchiz olunub ki, bu da pasiyentlərə qısa müddətdə tam dəqiq diaqnoz qoyulmasına, onların düzgün müalicə olunmasına və yüksək ixtisaslı həkimlər tərəfindən uğurlu əməliyyatların həyata keçirilməsinə imkan verir.

ATU-nun Azərbaycanda yeganə tibb təhsil müəssisəsi olduğunu bildirən Ə.Əmiraslanov universitetdə xarici ölkələrdən olan tələbələrin də oxuduğunu bildirdi. Onun sözlərinə görə, hazırda universitetin 7000-dən çox tələbəsi var və onlar tam beynəlxalq standartlara uyğun təhsil alır, yüksək şəraitli klinikalarda təcrübə keçirlər.

Akademik Şavkat Karimov da öz növbəsində rəhbərlik etdiyi müəssisə haqqında məlumat verib. Onun sözlərinə görə, Daşkənd Tibb Akademiyasının tərkibində bir neçə universitet fəaliyyət göstərir. Artıq 11 ildir Akademiyaya rəhbərlik edən Ş.Karimov Azərbaycan Tibb Universiteti ilə əlaqələri genişləndirməyin tərəfdarı olduğunu vurğulayıb.

Görüşün sonunda Azərbaycan Tibb Universiteti və Daşkənd Tibb Akademiyası arasında mütəxəssis və rezident mübadiləsi haqqında qarşılıqlı əməkdaşlıq müqaviləsi imzalanıb.

**ATU-nun mətbuat xidməti**

# ATU-da «Aktiv Tibb Tələbəsi Proqramı» layihəsinin tədbiri keçirildi

**◆ Bu il noyabrın 17-də Azərbaycan Tibb Universitetində (ATU) Prezident yanında Gənclər Fondunun maliyyə dəstəyi və Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilati dəstəyi ilə "Aktiv Tibb Tələbəsi Proqramı" layihəsi çərçivəsində tədbir keçirilib. İki gün davam edən tədbirə universitetin aktiv tələbələri qatılıb.**




Tədbirin keçirilməsinin məqsədi "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının müvafiq bəndlərinə uyğun olaraq gənclər arasında ictimai aktivliyin artırılması, gənclərin asudə vaxtının səmərəli keçirilməsinin təşkilindən ibarət idi.



Tədbir THİK sədri Elşad Novruzovun çıxışı ilə başlayıb. Elşad müəllim iştirakçıları salamlayaraq bildirib ki, universitetimizdə həyata keçirilən layihə istedadlı tələbələrin üzə çıxarılmasına xidmət edir. "Universitetimizin tələbələri digər ali təhsil ocağının tələbələrindən fərqli olaraq bu cür layihələrdə az iştirak edir. Ona görə də, ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsi olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu ilə belə bir layihəni təqdim etməyi düşündük. Layihənin də məhz bu gün sizlərə təqdim olunması səbəbsiz deyil. Bildiyiniz kimi, bu gün Dirçəliş Günü, həm də Beynəlxalq Tələbə Günüdür"-deyən E.Novruzov bu günlər münasibətilə tələbələri təbrik etdi və onlara uğurlar arzuladı.

Layihənin rəhbəri Nicat Mehrəliyev də çıxışında " Aktiv Tibb Tələbəsi Proqramı "(ATTP) layihəsinin ADU-nun tələbələri tərəfindən maraqla qarşılandığını və bu tədbirin onlara maraqlı və lazımlı layihələrin hazırlanmasında bir stimul verəcəyini bildirdi.

Növbəti gün isə tibb tələbələrinə layihələrin yazılması və idarə olunması mövzusunda təlimlər keçirildi

Təlimlər zamanı tibb universitetinin tələbələrinə təcrübəli təlimçilər tərəfindən ictimai fəaliyyətin əsasları, layihələrin ideya halından başlayıb icrasına qədər olan mərhələləri ilə bağlı biliklər verilmiş, model üzərində tələbələr layihələr hazırlamışlar. Nihad Allahyarlıya verildi. O, layihələrin hazırlamsı, necə təqdim olunması barədə tələbələrin qarşısında çıxış etdi və onlara bir sıra dəyərli tövsiyyələrini verdi.

Təlimçilər arasında Nihat Allahyarlının layihələrlə bağlı təklifləri tələbələr tərəfindən daha maraqla qarşılandı. Təlimləri uğurla başa vuran tələbələr sonda sertifikatla təltif olundular.

**QABİL**

# THİK Xocalı faciəsi ilə bağlı tədbirə hazırlaşır




Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) gələn il Xocalı faciəsi ərəfəsində tələbələrin iştirakı ilə flaşmob və rəsm sərgisinin keçirilməsini planlaşdırır. Bu barədə "Təbib" qəzetinə Komitənin sədri Elşad Novruzov məlumat verib. Onun bildirdiyinə görə, tədbirə ciddi hazırlıq işləri gedir, flaşmob və rəsm sərgisində iştirak etmək istəyən tələbələr bu il dekabrın 15-ə qədər komitəyə müraciət edə bilərlər.

# Hərbi tibb fakültəsinin TEC-i təşkil olunub

Oktyabrın 27-də Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin Tələbə Elmi Cəmiyyəti (TEC) yaradılıb.

"Hərbi Təbabət Elmləri üzrə problem komissiyası və elmi şurası"nda Hərbi Tibb Fakültəsi TEC-in əsasnaməsi təsdiq olunub. Cəmiyyətə tələbələrdən Əvəz Zeynallı sədr, təşkilat komitəsinin üzvləri isə Azər Salehli və Ələkbər Abbaslı seçiliblər. TEC-in işinə nəzarəti və rəhbərliyi isə Hərbi tibb fakültəsi rəisinin elmi işlər üzrə müavini, tibb xidməti polkovnik-leytenantı, tibb elmləri namizədi Pərviz Məmmədova həvalə olunub.

Elmi konfranslar və seminarlar təşkil etmək, aktiv və çalışqan tələbələrin təhsil müddətində elmi işlə məşğul olmasına həvəs yaratmaq, elmi iş götürən tələbələrin fəaliyyətini kordinasiya etmək və onların fəaliyyətinə köməklik, ölkə daxili və beynəlxalq konfranslarda tələbələrin iştirakının təşkili, tələbələrin elmi məqalələrinin nəşrinə köməklik göstərmək TEC-in əsas vəzifələrindən hesab olunub.

**«TƏBİB»**

# Beş qitənin həkimləri Azərbaycanda - Heydər Əliyev Mərkəzində

***Noyabrın 20-də Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyasının təşəbbüsü ilə “Anadangəlmə ürək xəstəliklərinin müalicəsində yeniliklər” adlı Azərbaycan Beynəlxalq Ürək Qrupunun 1–ci beynəlxalq konfransının rəsmi açılışı olub.***






Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və Heydər Əliyev Mərkəzinin təşkilati dəstəyi ilə “Uşaq ürəkləri Azərbaycanda döyünür” devizi ilə keçirilən beynəlxalq konfrans 20 noyabr- Ümumdünya Uşaqlar Gününə həsr olunub.

Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini Adil Kərimli mərasim iştirakçılarını salamlayaraq bildirib ki, bu mühüm beynəlxalq tədbir, eyni zamanda, uşaq hüquqlarının əsas təməli sayılan “Sağlamlıq hüququ”nun təmin olunması istiqamətində BMT-nin qlobal təşəbbüsünə Azərbaycan dövlətinin və səhiyyəsinin göstərdiyi humanist dəstəyin gözəl nümunəsidir.

Ulu öndər Heydər Əliyevin adını daşıyan Mərkəzin fəaliyyətindən danışan A. Kərimli qeyd edib ki, artıq Azərbaycan bir çox beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Sevindirici haldır ki, bu tədbirlərin bir çoxuna Heydər Əliyev Mərkəzi ev sahibliyi edir. O, ölkəmizdə səhiyyənin sürətlə inkişaf etdiyini və bu sahədə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələrin əhəmiyyətini də vurğulayıb. Bildirib ki, beş qitəni - Amerika, Avropa, Asiya, Avstraliya və Afrikanı əhatə etməklə 40-dan çox ölkədən dəvət olunmuş 100-dən çox pediatr, kardioloq və ürək-damar cərrahı Azərbaycanda bir araya gələrək dünya ictimaiyyətinin diqqətini bir daha bu mühüm problemə yönəldəcəklər. Bu baxımdan konfrans gənc həkimlərin yetişməsində və formalaşmasında mühüm rol oynayacaq.

Konfransın azərbaycanlı həkimlər üçün faydalı olacağını diqqətə çatdıran Azərbaycan Respublikası səhiyyə nazirinin müavini Elsevər Ağayev bildirib ki, Heydər Əliyev Mərkəzində ilk dəfə keçirilən bu mühüm səhiyyə tədbiri, həm də qonaqlara Azərbaycanın son illərdə qazandığı nailiyyətlərlə də tanış olmaq imkanı verəcəkdir. Nazir müavini ölkəmizdə ana və uşaq ölümünün azaldığını, son 8 ildə 600-dək tibb müəssisəsinin əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verildiyini, bu səhiyyə ocaqlarının əksəriyyətinin uşaqlar üçün nəzərdə tutulduğunu diqqətə çatdırıb. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı”nın icrasından danışan E.Ağayev bildirib ki, hər bir uşağın sağlamlığı dövlətimiz üçün böyük əhəmiyyət kəsb edir. İndiyədək ölkəmizdə 2 milyondan çox uşaq icbari dispanserizasiyadan keçirilib.

Açılışda çıxış edən Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyasının sədri Rəşad Mahmudov deyib ki, konfransda yerli və xarici mütəxəssislər arasında aparılacaq qlobal elmi-təcrübi fikir mübadiləsi respublikamızda anadangəlmə ürək xəstəliklərinin profilaktikasında, erkən diaqnostikasında, müalicəsində beynəlxalq standartlara uyğun xidmətin və keyfiyyət sisteminin tətbiqinə təkan verəcəkdir. O, əminliklə bildirib ki, perinatologiya, neonatologiya, reanimatologiya, pediatrik kardiologiya və ürək-damar cərrahiyyəsi sahələri arasındakı inteqrasiya və bu sahələrdə çalışan peşəkarlar arasındakı qarşılıqlı iş birliyi bu problemin həllində mühüm nailiyyətlər əldə etməyə köməklik edəcəkdir. Bu nailiyyətlər öz növbəsində anadangəlmə ürək xəstəliyi ilə doğulan körpələrə, uşaqlara və yeniyetmələrə göstərilən peşəkar qayğının daha yüksək səviyyədə həyata keçirilməsinə zəmin yaradır. Konfransın innovativ və zəngin elmi proqramı pediatriya, kardiologiya və ürək-damar cərrahiyyəsi sahələrinin əsas istiqamətlərini əhatə etməklə anadangəlmə ürək qüsurlarının diaqnostikasında, müalicəsində ən son yenilikləri, tədqiqatlarda elmi və texnoloji nailiyyətləri özündə əks etdirir. Konfransda tanınmış beynəlxalq mütəxəssislərin məruzələri, həmçinin klinik kurslar, canlı cərrahiyyə yayımı və videotəqdimatlar təşkil olunacaqdır.

Heydər Əliyev Mərkəzinin səhiyyə sahəsində layihələrə dəstək verilməsi istiqamətindəki fəaliyyəti çərçivəsində reallaşan beynəlxalq konfransın açılış mərasimində anadangəlmə ürək qüsurları probleminə həsr olunan film nümayiş etdirilib.

Konfrans işini noyabrın 22-dək davam etdirib.

**Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu iki ali təhsil ocağında təqdimat keçirib.**

# Bilik Fondu gələcəyin cərrahları və memarları üçün təqdimat keçirib

Fondun informasiya təminatı sektorundan AzərTAc-a bildiriblər ki, qurumun əməkdaşları əvvəlcə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında olublar.

Təqdimat mərasimində Bilik Fondunun icraçı direktoru Oqtay Səmədov rəhbərlik etdiyi qurumun yaranma tarixi və fəaliyyəti barədə geniş məlumat verib. Bildirilib ki, fondun layihələrinin həyata keçirilməsində sağlam cəmiyyətin qurulmasına xidmət edən həkimlərin iştirakına ehtiyac var. Tibb işçiləri, xüsusən də səhiyyə sistemində çalışan alim və tədqiqatçılar fondun dəstəyi ilə bilik və bacarıqlarını əhaliyə daha təsirli formada çatdıra bilərlər.

Klinikanın direktoru, professor Hacıqulu Bağırov rəhbərlik etdiyi tibb müəssisəsinin təcrübəli əməkdaşlarının Bilik Fondunun layihələrində yaxından iştirak edəcəyini bildirib.



Digər təqdimat Azərbaycan Memarlıq və İnşaat Universitetində keçirilib.

Universitetin rektoru, Milli Məclisin deputatı, Gülçöhrə Məmmədova Prezident İlham Əliyevin müvafiq Fərmanına əsasən, ölkə əhalisinin elmi-texniki, siyasi-ictimai, ekoloji və humanitar biliklərini artırmaq, Azərbaycan Respublikasının daxili və xarici siyasətinin, azərbaycançılıq məfkurəsinin mahiyyətini ictimaiyyətə çatdırmaq, milli-mənəvi dəyərləri təbliğ etmək məqsədi ilə belə bir Fondun yaradılmasını yüksək dəyərləndirib.

Rektor rəhbərlik etdiyi ali məktəbin müəllim və tələbələrinin Bilik Fondu ilə birgə səmərəli layihələr həyata keçirəcəklərinə əminliyini bildirib.

O.Səmədov Bilik Fondunun fəaliyyət istiqamətləri, maarifçilik tədbirləri ilə bağlı geniş məlumat verib. O, fondun gördüyü işlər, könüllülərin layihələrə cəlb olunması, tələbə və müəllimlərlə əməkdaşlığın mümkün formaları barədə ətraflı danışıb.

Fondun yaranması, məqsəd və vəzifələri, həyata keçirdiyi layihələrdən bəhs edən film nümayiş olunub.

Daha sonra müəllim və tələbələrin suallarını cavablandıran O.Səmədov onları Bilik Fondunun tədbirlərində, əhali arasında elmi-texniki biliklərin artırılması ilə bağlı layihələrdə fəal iştirak etməyə çağırıb. Universitetin rəhbərliyi fondun tədbirlərində, xüsusən “Dini abidələrdə tarixin izləri” layihəsində iştirak etmək istədiklərini bildirib.

Bilik Fondunun ali məktəblərdə təqdimatları gələn həftə davam edəcək.

# Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin təhsil nazirləri bir sıra vacib məsələləri müzakirə ediblər

***Noyabrın 28-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) üzvü olan ölkələrin təhsil nazirlərinin üçüncü görüşü keçirilib.***




Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək Azərbaycan xalqının ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Şəhidlər xiyabanını ziyarət edən tədbir iştirakçıları Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının məzarları üzərinə güllər qoyublar.

Daha sonra qonaqlar şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklil qoyublar.

Görüşdə çıxış edən təhsil naziri Mikayıl Cabbarov ölkəmizdə təhsilin inkişafına göstərilən dövlət qayğısından, bu sahədə həyata keçirilən proqram və islahatlardan, əldə edilən uğurlardan danışıb. Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyasının əsas məsələlərdən olduğunu diqqətə çatdıran nazir qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib.

M.Cabbarov bildirib ki, TDƏŞ-nin üzvü olan ölkələrin təhsil nazirlərinin üçüncü görüşündə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanın nümayəndə heyətləri iştirak edir. Beynəlxalq təşkilat kimi təşəkkül tapmış bu qurum üzv ölkələr arasında müxtəlif sahələrdə dialoq və əməkdaşlığın formalaşması istiqamətində uğurlu addımlar atır.

Nazir Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında" 2013-cü il 24 oktyabr tarixli Sərəncamının gələcək üçün təhsilin əsas prioritetlərini müəyyən edən mühüm sənəd olduğunu qeyd edib. Bildirilib ki, Dövlət Strategiyasının əsas hədəfi ölkəmizin müasirləşməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycanın beynəlxalq rəqabət qabiliyyətini yüksəltməkdir. Dövlət Strategiyası, həmçinin "qara qızılı insan kapitalına çevirmək" fəlsəfəsini qarşıya əsas vəzifə kimi qoyub. Təhsil naziri "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində bu günədək 3 mindən çox gəncin təhsil aldığını vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə Prezident İlham Əliyevin tədbir iştirakçılarına təbrik məktubunu oxuyub.

Görüşdə TDƏŞ-nin baş katibi Ramil Həsənov çıxış edərək şuranın fəaliyyətinə göstərdiyi daimi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. R.Həsənov Şuranın üzvü olan ölkələrin təhsil nazirliklərinin sıx əməkdaşlıq edəcəyinə, bundan sonra da dövlətlərimizin ümumi maraqlarına xidmət edən yüksək nəticələr əldə olunacağına əminliyini bildirib.

Türkiyənin təhsil naziri Nəbi Avcı toplantının ölkələrimiz üçün faydalı və önəmli olacağını bildirib. O deyib ki, gələcəyimizin təminatı olan gənclər arasında ortaq düşüncələrin inkişafı çox vacib məsələdir. Bu tədbirdə ümumi və tam orta təhsil sahəsində ortaqlıq, ortaq tarix və ədəbiyyat kitabları, ortaq televiziyanın yaradılması müzakirə ediləcək. Bu gün dərin intellektə malik gənc nəsillər yetişdirməyə daha çox ehtiyacımız var.

Qırğızıstanın təhsil naziri Kanat Sadıkov, Qazaxıstan Təhsil Nazirliyinin məsul katibi Aliyə Qalimova və başqaları görüşün ölkələrimiz arasında təhsil sahəsində faydalı olacağına əminliklərini ifadə edib, onun işinə uğurlar arzulayıblar. Natiqlər tədbirin təşkilində əməyi olanlara minnətdarlıqlarını bildiriblər.

Görüşdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzvü olan ölkələr arasında təhsil sahəsində əməkdaşlığın mövcud vəziyyəti, əlaqələrin inkişafının əsas istiqamətləri, o cümlədən mübadilə proqramları, ortaq dərsliklərin işlənib hazırlanması, orta məktəb səviyyəsində şagird mübadiləsi, Türk Akademiyasının Elmi Şurasının yaradılması və digər məsələlər müzakirə edilib.

Sonda Protokol qəbul olunub.

# MÜŞAVİRƏDƏ AKTUAL MƏSƏLƏLƏRƏ TOXUNULDU

**Noyabrın 26-da Azərbaycan Tibb Universitetinin pediatriya fakültəsinin professor-müəllim heyətinin və V-VI kurs tələbələrin birgə iştirakı ilə istehsalat müşavirəsi keçirildi. Müşavirədə tədrisin keyfiyyətinin yaxşılaşdırılması, tələbələrin dərsə davamiyyətinin vəziyyəti, dərsin cari mənimsənilməsi və bir sıra məsələlər müzakirə olundu. Müzakirə zamanı müəlim və tələbələrin lazımi məsələlərlə bağlı məzmunlu və dolğun çıxışları müşavirənin canlı şəkildə keçirilməsinə şərait yaratdı. Tələbələrin verdiyi sualların müvafiq şəkildə cavablandırılması müşavirəyə marağı daha da artırdı.**





Fakültənin dekan müavini, professor Mehman Əliyev çıxışı zamanı bir sıra aktual məsələlərə toxundu. Bildirdi ki, son üç ayda aparılan araşdırmaların nəticələri onu deməyə əsas verir ki, tələbələrin dərsə davamiyyəti normaldır, onların təhsilə olan maraqlarının artırılması üçün müəllimlər bütün metodik vasitə və imkanlardan maksimum istifadə edirlər. Mehman müəllim uğurlu göstəricilərlə yanaşı, bəzi tələbələrin dərsə davamiyyətinin zəif olmasından, qüsur və çatışmazlıqlardan söhbət açdı. Mövcud promlemləri müəllim-tələbələrlə birgə aradan qaldırmağın zəruriliyini söylədi.

Professor Çingiz Quliyev öz çıxışında tələbələrin təhsilə marağının artırılması, onların yüksək hazırlıqlı kadrlar kimi yetişməsində professor-müəllim heyətinin üzərinə böyük vəzifə düşdüyünü qeyd etdi. Tələbələri öyrəndiklərini yaxşı mənimsəməyə və əzbərçilikdən kənar olmağa çağırdı. Yaxşı mütəxəssis kimi yetişmələri üçün müəllimlərin elmi potensialından bəhrələnməyi və təcrübə qazanmalarını tövsiyə etdi.

Tədris-Terapevtik Klinikanın direktoru, ə.e.x., professor Surxay Musayev öz çıxışında tələbələrin elmi səviyyəsinin qənaətbəxş olmasından, hazırda yüksək hazırlıqlı kadrların yetişdirilməsi üçün universitetin klinikalarında lazımi şəraitin mövcudluğundan bəhs etdi. Əksər tələbələrin təcrübə qazanmaq üçün ona müraciət etmələrini yüksək qiymətləndirdi. Bəzi tələbələrin tədrisə biganə yanaşmalarını təəsüflə qeyd edərək, onların bu məsələdə düzgün mövqe tutmadıqlarını və bunula bağlı nəticə çıxarmalarını diqqətə çatdırdı.

Fakültənin dekanı dosent Nəriman Nağıyev isə "Bakı I Avropa Oyunları"nın keçirilməsi ilə əlaqədar tədrisin akademik təqvimində dəyişikliklərin olduğunu bildirərək rektor, akademik Əhliman Əmiraslanovun müvafiq əmri barədə məlumat verdi. Əsas məqsədin gələcəkdə savadlı, bacarıqlı və təcrübəli həkimlər hazırlamaqdan ibarət olduğunu diqqətə çatdırdı. O, tələbələrə yaxınlaşmaqda olan semestr imtahanlarına lazımi səviyyədə hazırlaşmağı tövsiyə etdi.

**Q.ABDULLAYEV**

# Layihə rəhbərləri mühazirələr oxuyub

**"Tempus" proqramı çərçivəsində EMİCVL və DECERPH layihələrinin gedişinə nəzarət məqsədilə Birləşmiş Krallıq, İtaliya, Fransa və Sloveniyadan Azərbaycan Tibb Universitetinə koordinator qrupu gəlib. Layihələrdə Qafqaz ölkələri, Ukrayna və bir sıra Avropa ölkələri iştirak edir və bu əməkdaşlıq 2016-cı ilədək fəaliyyət göstərəcək.**



EMİCVL və DECERPH layihəsinin koordinatorları tədris işləri üzrə prorektor, professor Sabir Əliyev, immunologiya kursunun rəhbəri, professor Gülnarə Nəsrullayeva, Dr. Dilarə Axundova,innovasiya şöbəsinin müdiri,professor Akif Qurbanov, Tədris Terapevtik Klinikanın direktoru, professor Surxay Musayevlə görüşüblər.

Layihənin gedişi ilə bağlı Hematologiya İnstitutunun rəhbərləri və Azərbaycan Hematologiya Assosiasiyasının prezidenti professor Çingiz Əsədovla da görüş olub. Qonaqlar Tədris Terapevtik Klinikada yeni qurulmuş hematologiya şöbəsini ziyarət ediblər. Daha sonra bu layihə haqqında müzakirələr keçirilib və kurikulumun tərkibi müəyyənləşdirilib. DECERPH layihəsinə əsasən yeni kurikulumların təşkili ilə bağlı kollektivə layihə rəhbərləri mühazirələr oxuyub.

Universitetin kompyuter imkanları, yüksək sürətli internet və mütəxəssislərin səviyyəsi araşdırılıb.

Dəyirmi masada İT mühəndisləri, mikrobioloqlar və layihə iştirakçıları qarşılıqlı müzakirələr zamanı virtual laboratpriyaların qurulması ilə bağlı maddi durum aspektlərini müzakirə ediblər.

**"TƏBİB"**

# İnsult, infarkt və miqrenin inkişafına təsir göstərən gen tapılıb

**İnsult inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə ölüm hallarının əsas səbəblərindən biridir. Hər il 15 milyon adam onun qurbanı olur. İnsult hər dörd haldan üçündə əlilliyə gətirib çıxarır. İnsult keçirən insanların dörddəbirinin qohumlarının və ya tibb işçilərinin qayğısına ehtiyacı olur.**

AzərTAc Britaniya KİV-lərinə istinadən xəbər verir ki, London Universiteti əməkdaşlarının ("Royal Holloway University of London") təşəbbüsü ilə aparılmış son tədqiqat çərçivəsində insult, infarkt və miqrenin inkişafına mane olan gen tapılıb.

16 000 avropalı və amerikalının iştirakçısı olduğu tədqiqat nəticəsində müəyyən edilib ki, PHACTR1 geninin daşıyıcıları boyun arteriyası xəstəliyindən daha çox əziyyət çəkirlər. Bu patologiya 50 yaşından yuxarı adamlarda insultun inkişafı üçün fon yaratmaqla bərabər, ürək tutmalarının və miqrenin də qarşısını alır.

Alimlər əmindirlər ki, əldə edilmiş məlumat ürək-damar sistemi xəstəliklərinin müalicəsi üçün yeni metodların hazırlanmasına kömək göstərəcəkdir.

# Bakıda estetik və yaşlanma əleyhinə təbabət üzrə I Azərbaycan konqresi öz işinə başlayıb

**Noyabrın 28-də Bakıdakı "Four Seasons" hotelində estetik və yaşlanma əleyhinə təbabət üzrə I Azərbaycan konqresi -AAAMC-2014 öz işinə başlayıb.**

Estetik cərrahiyyənin problemlərinə və perspektivlərinə həsr olunan bu mühüm tədbirə İngiltərə, Belçika, Almaniya, İsrail, İtaliya, İspaniya, Fransa, İsveçrə, Rusiya, Ukrayna və Polşadan 25 aparıcı mütəxəssis qatılıb. Estetik təbabət bu gün gözəllik və sağlamlıq aləminin ayrılmaz hissəsinə çevrilib. Artıq xeyli vaxtdır ki, estetik təbabət özünü gənclik və gözəllik anlayışının etibarlı köməkçisi kimi təsdiq edərək ən müxtəlif ideyaların reallaşdırılması üçün cəlbedici imkanlar təklif edir. Kosmetoloji məhsulların, avadanlığın və cavanlaşmanın innovasiyalı üsullarının müxtəlifliyi bəzən heyrət doğurur. Lakin ən son təmayül və yeniliklərdən xəbərdar olan peşəkar mütəxəssis təklif olunan metodların mütərəqqiliyini həmişə qiymətləndirir və əldə etdiyi bilikləri savadlı tətbiq edir.

Konqresin açılışında çıxış edən tibb elmləri doktoru, dermatovenerolog Sənan Kərimov bildirib ki, Bakı iki gün ərzində dünya estetik təbabətinin mərkəzinə çevriləcəkdir. Konqresin estetik təbabət və dermatologiya sahəsində təcrübə mübadiləsinin aparılması baxımından əhəmiyyəti vurğulanıb.

Qeyd olunub ki, Azərbaycan Respublikasının iqtisadi inkişafı fonunda digər sahələrlə birlikdə estetik təbabət də xeyli irəli gedibdir. Ölkəmizdə həkim-kosmetoloqların və plastik cərrahların peşəkarlıq səviyyəsi gündən-günə artır.

Açılışda çıxış edənlər bildiriblər ki, konqresdə yeni nəzəri, praktiki bilik və vərdişlərin əldə edilməsi, maraqlı elmi müzakirələrdə iştirak, yüksək səviyyədə formal və qeyri-formal ünsiyyət üçün geniş imkanlar olacaqdır.

Konqresin ikinci gününün sonunda Qala-axşam çərçivəsində estetik təbabət, plastik cərrahiyyə və kosmetologiya sahəsində illik milli "Art of Beauty Award" mükafatının təntənəli təqdimetmə mərasimi baş tutacaqdır. Aparıcı xarici və yerli ekspertlərdən ibarət münsiflər heyətinin qərarı ilə ölkəmizin ən yaxşı mütəxəssisləri 2014-cü ildə peşə fəaliyyətlərinin nəticəsi kimi öz mükafatlarını alacaqlar.

# Bakıda gənc oftalmoloqlar bir araya gəldilər

**Noyabrın 28-də "Müasir oftalmologiyanın problemləri və son nailiyyətləri" mövzusunda Bakıda keçirilmiş ənənəvi konfransda gənc oftalmoloqlar bir araya gəliblər.**

AzərTAc xəbər verir ki, görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın adını daşıyan Milli Oftalmologiya Mərkəzində keçirilən konfransda Azərbaycanın tibb ictimaiyyətinin nümayəndələri, eləcə də rayonlardan gəlmiş oftalmoloqlar iştirak ediblər.

Konfransın açılışında çıxış edən mərkəzin direktoru, Səhiyyə Nazirliyinin baş oftalmoloqu Elmar Qasımov son onilliklərdə oftalmologiyanın dinamik inkişafda olan tibb sahələrindən biri olduğunu bildirib. Qeyd edib ki, həm diaqnostika metodlarının sürətlə təkmilləşməsi, həm də yeni cərrahi və farmakoloji müalicə vasitələrinin oftalmoloji praktikaya tətbiqi baxımından konfrans gənc həkimlər üçün faydalı olacaqdır.

Konfransın elmi hissəsində mövzuya dair 18 məruzə dinlənilib, müzakirələr aparılıb.

Konfransın materialları məqalə şəklində "Oftalmologiya" jurnalında çap olunacaq.

# Qida zəhərlənməsi hadisələri əsasən məişətdə baş verir

**Bu ilin oktyabr ayı ərzində əhali arasında baş vermiş 78 qida zəhərlənməsi hadisəsindən 86 nəfər zərər çəkib.**

Bu barədə AzərTAc-a açıqlama verən Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin şöbə müdiri İmran Abdullayev ötən ay 1 botulizm hadisəsinin qeydə alındığını, bundan 7 nəfərin zərər çəkdiyini də bildirib.

Qida zəhərlənməsi hadisələrinin əsasən məişətdə baş verdiyini vurğulayan şöbə müdiri əhaliyə ərzaq məhsulları alarkən diqqətli olmağı tövsiyə edib. O bildirib ki, ət və süd məhsulları, şirniyyatlar, kremli qənnadı məmulatları, konservləşdirilmiş məhsullar, kolbasa məmulatları qısa müddətdə xarab olduğu üçün onlar insanlarda daha çox zəhərlənməyə səbəb ola bilər.

# Litvalı həkimlər Bakıda

**Litvadan olan bir qrup həkim Bakıda Respublika Diaqnostika Mərkəzində oldublar.**

Mərkəzdən AzərTAc-a bildiriblər ki, Litvalı həkimlər azərbaycanlı həmkarları ilə təcrübə mübadiləsi məqsədi ilə Bakıya gəliblər. Həkimlərimiz litvalı həmkarlarının müasir cərrahiyyə metodlarına aid təcrübələrindən faydalana biləcəklər .

"Qabaqcıl tibbi təcrübə mübadiləsi" layihəsi çərçivəsində noyabrın 26-27-də keçirilmiş görüşlər zamanı birgə müayinə-müalicə işləri nəzərdə tutulub.

# Ölkəmizdə əhalinin səhiyyə xidmətlərinə etimad səviyyəsi öyrənilir

**Azərbaycanda əhalinin səhiyyə sisteminə etimadının və göstərilən xidmətlərdən məmnunluq səviyyəsinin öyrənilməsi məqsədi ilə tədqiqatlara başlanılıb.**




Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzindən (İSİM) AzərTAc-a verilən məlumata görə, tədqiqatlar Bakı, Gəncə və Mingəçevir şəhərlərinin, eləcə də Lənkəran Masallı, Quba, Xaçmaz, Şamaxı və İsmayıllı rayonlarının ilkin səhiyyə xidmətləri göstərən dövlət tibb müəssisələrində aparılır. Əldə olunmuş məlumatlar əsasında təhlillər aparılacaq və hesabat hazırlanacaq.

Tədqiqatın nəticələrinin ilin sonunadək ictimaiyyətə açıqlanması planlaşdırılır.

# Prezident təqaüdünə layiq görülmüş tələbələrimiz



**İlkin MƏMMƏDZADƏ,** 1996-cı ildə Ağdam rayonunun Çəmənli kəndində anadan olub. 2014-cü ildə Çəmənli kənd tam orta məktəbini bitirib. Ali məktəblərə qəbul imtahanlarında 700 bal toplayaraq Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olub.



**Vüqar ALPAŞAYEV** 1997-ci ildə Bakı şəhərində anadan olub. 2014-cü ildə Bakı Türk liseyini bitirib. Ali məktəblərə qəbul imtahanlarında 695 bal toplayaraq Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olub.



**Fərid HƏMİDLİ** 1996-cı ildə Şəki şəhərində anadan olub. 2014-cü ildə Bakıdakı 320 nömrəli tam orta məktəbi bitirib. Ali məktəblərə qəbul imtahanlarında 692 bal toplayaraq Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olub.



**Oruc XƏLİLOV** 1997-ci ildə Lənkəran şəhərində anadan olub. 2014-cü ildə 7 nömrəli şəhər tam orta məktəbini bitirib. Ali məktəblərə qəbul imtahanlarında 687 bal toplayaraq Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olub.



**Minayə XURŞUDOVA,** 1997-ci ildə Şəki şəhərində anadan olub. 2014-cü ildə Şəkidəki 5 nömrəli şəhər tam orta məktəbini bitirib. Ali məktəblərə qəbul imtahanlarında 685 bal toplayaraq Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olub.



**Fidan ƏLİZADƏ** 1997-ci ildə Sumqayıt şəhərində anadan olub. 2014-cü ildə Sumqayıt şəhərində "İstedad" liseyini (humanitar və təbiət-riyaziyyat təmayüllü) bitirib. Ali məktəblərə qəbul imtahanlarında 685 bal toplayaraq Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olub.



**Fuad QULİYEV,** 1997-ci ildə Astara rayonunun Kijəbə qəsəbəsində anadan olub. 2014-cü ildə Kijəbə qəsəbə tam orta məktəbini bitirib. Ali məktəblərə qəbul imtahanlarında 681 bal toplayaraq Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olub.



**İlahə İSGƏNDƏROVA,** 1996-cı ildə Bakı şəhərində anadan olub. 2014-cü ildə Bakıdakı 312 nömrəli tam orta məktəbi bitirib. Ali məktəblərə qəbul imtahanlarında 680 bal toplayaraq Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olub.



**Təranə TAĞIYEVA,** 1996-cı ildə Moskva şəhərində anadan olub. 2014-cü ildə Bakıdakı 236 nömrəli tam orta məktəbi bitirib. Ali məktəblərə qəbul imtahanlarında 680 bal toplayaraq Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olub.



**Nicat QASIMOV,** 1997-ci ildə Ağsu rayonunda anadan olub. 2014-cü ildə Ağsu 1 nömrəli şəhər tam orta məktəbini bitirib. Ali məktəblərə qəbul imtahanlarında 700 bal toplayaraq AzərbaycanTibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olub.



**Lamiyə QASIMOVA,** 1997-ci ildə Bakı şəhərində anadan olub. 2014-cü ildə Bakıdakı 175 nömrəli tam orta məktəbi bitirib. Ali məktəblərə qəbul imtahanlarında 690 bal toplayaraq Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olub.



**Elnur İMAMƏLİYEV,** 1997-ci ildə Sumqayıt şəhərində anadan olub. 2014-cü ildə Sumqayıt şəhərindəki "İstedad" liseyini (humanitar və təbiət-riyaziyyat təmayüllü) bitirib. Ali məktəblərə qəbul imtahanlarında 690 bal toplayaraq Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olub.



**Qəmər QUDRƏTLİ,** 1997-ci ildə İsmayıllı rayonunda anadan olub.2014-cü ildə İsmayıllıdakı 4 nömrəli şəhər tam orta məktəbi bitirib. Ali məktəblərə qəbul imtahanlarında 683 bal toplayaraq Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olub.



**Afina SÜLEYMANOVA,** 1997-ci ildə Gəncə şəhərində anadan olub. 2014-cü ildə Bakıda XXI əsr-Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzini bitirib. Ali məktəblərə qəbul imtahanlarında 682 bal toplayaraq Azərbay can Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olub.



**Günel MƏMMƏDOVA,** 1997-ci ildə Gəncə şəhərində anadan olub. 2014-cü ildə Bakıdakı 287 nömrəli "Zəkalar" liseyini bitirib. Ali məktəblərə qəbul imtahanlarında 680 bal toplayaraq Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olub.



**Gülnar MƏMMƏDRZAYEVA,** 1997-ci ildə Qazax rayonunun Çaylı kəndində anadan olub. 2014-cü ildə Çaylı kənd 1 nömrəli tam orta məktəbini bitirib. Ali məktəblərə qəbul imtahanlarında 680 bal toplayaraq Azərbaycan ibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olub.



**Arzu NAĞIYEVA,** 1996-cı ildə Naxçıvan MR Ordubad rayonunun Dəstə kəndində anadan olub. 2014-cü ildə Bakıdakı 287 nömrəli "Zəkalar" liseyini bitirib. Ali məktəblərə qəbul imtahanlarında 680 bal toplayaraq Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olub.



**Elmar NOVRUZOV,** 1996-cı ildə Şəmkir rayonunun Əliyaqublu kəndində anadan olub. 2014-cü ildə Əliyaqublu kənd tam orta məktəbini bitirib. Ali məktəblərə qəbul imtahanlarında 680 bal toplayaraq Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olub.



**Şəmisdan MAHMUDOV,** 1997-ci ildə Bakı şəhərində anadan olub. 2014-cü ildə Bakıdakı 249 nömrəli tam orta məktəbi bitirib. Ali məktəblərə qəbul imtahanlarında 695 bal toplayaraq Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olub.



**Xanım AĞABƏYOVA,** 1997-ci ildə Zaqatala rayonunun Yuxarı Tala kəndində anadan olub. 2014-cü ildə Aşağı Tala 1 nömrəli kənd tam orta məktəbini bitirib. Ali məktəblərə qəbul imtahanlarında 680 bal toplayaraq Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olub.



**Nazim ƏZİZZADƏ,** 1997-ci ildə Biləsuvar rayonunda anadan olub. 2014-cü ildə Mübariz İbrahimov adına Biləsuvar məktəb-lisey kompleksini bitirib. Ali məktəblərə qəbul imtahanlarında 682 bal toplayaraq zərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olub.



**Fəridə SÜLEYMANOVA,** 1997-ci ildə Tümen vilayətinin Surqut şəhərində anadan olub. 2014-cü ildə Mingəçevir şəhər təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü liseyi bitirib. Ali məktəblərə qəbul imtahanlarında 682 bal oplayaraq Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olub.



**Kənan EMİNOV,** 1997-ci ildə Bərdə rayonunda anadan olub. 2014-cü ildə akademik Z.Əliyeva adına Texniki təmayüllü məktəb-liseyi bitirib. Ali məktəblərə qəbul imtahanlarında 680 bal toplayaraq Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olub.



**Aygün ƏSGƏRBƏYLİ,** 1997-ci ildə Xaçmaz rayonunda anadan olub. 2014-cü ildə Xaçmaz rayonundakı 3 nömrəli şəhər tam orta məktəbini bitirib. Ali məktəblərə qəbul imtahanlarında 682 bal toplayaraq Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olub.



**Taleh MƏHƏRRƏMOV,** 1997-ci ildə Bərdə rayonunda anadan olub. 2014-cü ildə rayonun 1 nömrəli şəhər tam orta məktəbini bitirib. Ali məktəblərə qəbul imtahanlarında 679 bal toplayaraq Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olub.

İş yoldaşlarımız

# 33 il kitablar aləmində

**"Səriyyəxanımın ( nənə öz adını sevimli nəvəsinə vermişdi) əmək kitabçasında bir ünvan , təkcə bir qeyd var: N.Nərimanov adına Azərbaycan Tibb İnstitutu ( indiki Azərbaycan Tibb Universiteti) və bu təhsil ocağının "Əsaslı kitabxanası". Savadlı, bilikli ziyalıdır, sənətini sevir. İşinin ustası kimi püxtələşmişdir. Gözəl ailəsi, uşaqları, nəvələri var, kollektivdə hamının hörmətini qazanmışdır.**



- Bu sahəni mən təsadüfən seçdim, -deyir Səriyyəxanım, - fikrim-zikrim müəllim olmaq idi, özü də riyaziyyat, ya da fizika müəllimi. Bu fənlərə maraq aşağı siniflərdən başlanmışdı. Məndə bu marağı yaradan, biliyimi "qabarıq şəkildə üzə çıxaran" sevimli müəllimlərim oldu. Allah işlərini avand etsin, dünyasını dəyişənlərə Allah rəhmət eləsin. Aftab müəllim riyaziyyat deyirdi, Qəzənfər müəllim fizikanı. Dərin bilik vermək üçün heç nə əsirgəmirdilər. Ara-sıra Qəzənfər müəllim eyham vururdu ki, qız, səni öz yerimdə, fizik kürsüsündə görürəm...

Beləcə 62 saylı məktəblə vidalaşdıq. Abituriyent dövrü gəlib yetişdi. Onda testə aparan yol uzaqda idi. Hər şey üzbəüz, yazılı həll edilirdi. Dərin bilik, bacarıq, elmi vərdişlər olan yerdə "lal maşınlarla dil tapmağa" nə vardı ki! İki fəndən yüksək qiymət almışdım. Üçüncüdə müəllimlə olan konflikt zamanı adi bir anlaşılmazlıq üzündən məni «kəsdilər». İşimi götürüb kitabxanaçılıq texnikumuna (onda N.Krupskaya adına idi) verdim və oldum tələbə.

**- İstək, seçim ayrı idi, texnikum həyatı sizə darıxdırıcı olmadı ki?** – sualına Səriyyəxanım Nəcəfqızının cavabı:

- Haqlısınız. Kitabxanaçılıq texnikumu, oradakı müəllimlərin sənət yanğısı, mütəxəssis hazırlamaq metodu dillə deyiləsi deyil. Xudayar Quliyev (kitabxanaşünaslıq), Fazil Cəbrayılov (biblioqrafiya) hamımızın hörmətini qazanmış müəllimlər idi. Onların səyi, bacarığı, pedaqoji taktı sayəsində biz yeni bir sahə ilə üzləşdik, sənəti sevdik, onu həyatımızın qayəsinə çevirdik. Mətləbi uzatmayım, sonradan Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsində oxuduğum müddətdə (1975-1980) heç bir çətinliyim olmadı. Elə işdə də bunun kimi.

Universitet həyatı sənətin sirlərini incəliklərinə qədər qavramaqda Səriyyəxanıma gözəl ərməğan oldu. O, Abuzər müəllimin, Sahib müəllimin, Tacəddin müəllimin, adlarını iftixar hissi ilə çəkir, onların biliyinə, mənəvi-əxlaqi keyfiyyətlərinə, hadisələrə real və obyektiv münasibət göstərmələrinə dair xarakterik nümunələr, epizodlar söyləyir...

1982-ci ilin ortalarından S.Quliyeva ATU-nun Əsaslı kitabxanasına təyinat alır, biblioqraf vəzifəsini yerinə yetirir. Dərin biliyi, sənətinə olan həvəsi, işə yüksək məsuliyyət hissi ilə girişməsi onu kollektivin sevimlisinə çevirir. İl tamam olmamış gənc biblioqrafı elmi xidmət şöbəsinə müdir keçirirlər və bu qeyd 33 ilə yaxındır ki, xanımın əmək kitabçasında saxlanılır, özü isə şöbəni bacarıqla idarə edir.

Sadə, çətin və şərəfli həyat yolu keçmiş Səriyyəxanım Quliyeva bu günlərdə 61-ci yaşına qədəm qoydu. Bir qərinə kitablar aləmində çalışan ziyalı qadının, mehriban ananın, gözəl valideynin şəninə bir neçə kəlmə ürək sözü söyləmək yersiz olmazdı. Nahar fasiləsiqabağı bir "beşdəqiqəlik" keçirmək lazım gəldi. Kitabxananın direktoru Ziyafət xanım Eminova S.Quliyevanı kollektivin adından təbrik etdi, ona cansağlığı, xoşbəxtlik arzuladı. Saşa müəllim öz həmkarına həsr etdiyi şeirini oxudu. Xanımlardan Solmaz, Gülara, Gövhər, Bilqeyis... ürək sözləri dedilər, ən xoş xatirələri yada saldılar, qayğıkeşliyi, xeyirxahlığı barədə epizodlar söylədilər. Bu qısa fasilədə çoxlarının çöhrəsini sevinc və göz yaşları bürümşdü, istəkdən, sevincdən doğan göz yaşları!

Bəli, ötən illər hədər getməmişdir! Səriyyəxanıma bu dəqiqələrdə təskinlik verən də elə bu idi.

**Əsgər ƏSGƏROV,**
*Əsaslı kitabxananın əməkdaşı*

# Beynin hansı zonası təxəyyülə cavab verir

Beyinin əmgək hissəsi aşağı tərtib sahələrindən daxil olan hissləri sintezləşdirən yüksək tərtib sahəsidir. Ayrı-ayrı neyron sxemləri fərqləndirməyə çalışan Viskonsin Universitetinin tədqiqatçıları (ABŞ, Medison) zehində cürbəcür səhnəciklər canlandırmağı videoya baxmaq ilə növbələşdirən insanların beyinlərinin elektrik aktivliyini müşahidə ediblər.

Onlar müəyyən ediblər ki, təsəvvür zamanı beynin əmgək hissəsindən peysər hissəsinə, yəni bir neçə hissin verdiyi siqnalları kombinasiya edən daha yüksək tərtib sahəsindən daha aşağı tərtib sahəsinə informasiya axını güclənir. Gözlərin qəbul etdiyi vizual informasiya, əksinə, beynin vizual qabığının böyük bir hissəsinin cəmləşdiyi peysər hissəsindən əmgək hissəsinə axır.

Bu sahədə tədqiqatlar yuxuda olanda və xəyala dalanda beyində baş verənləri başa düşməyə kömək edən yeni vasitələrin işlənib hazırlanmasına gətirib çıxara bilər. Professor Barri Van Vin qısamüddətli yaddaşı




kodlaşdırmaq məqsədi ilə beynin şəbəkədən necə istifadə etdiyini başa düşmək üçün yeni metodlar tətbiq etmək niyyətindədir. O deyib: "Zənnimcə, bu, həqiqətən indiyədək tədqiq edilməyən yeni mövzudur. Bilirik ki, beyin müstəqil hissələr dəsti deyil, öz arasında qarşılıqlı fəaliyyətdə olan ixtisaslaşdırılmış sahə şəbəkəsidir. İnsanların və heyvanların beynində sinir siqnalları müəyyən istiqamətdə hərəkət edir, dayanır və müxtəlif yerlərdə peyda olur. Sən demə, bizim siqnalı emal edən metodlarımız onları izləmək üçün yetərincə həssasdır".

# Moskvada Da Vinci cərrah-robotu ilk ürək əməliyyatı edib

**Da Vinci robotu moskvalı cərrahlara işlək ürək mi-okardında qan dövranının bərpasında yardımçı olub. Rusiyada bu qəbildən olan ilk əməliyyat Moskva səhiyyə departamentində aparılıb.**

Səhiyyə departamentinin rəhbəri Aleksey Xripun Rusiyanın cəmi iki tibb mərkəzində robotlar vasitəsi ilə cərrahiyyə əməliyyatlarının aparıldığını bildirib.

Qeyd edək ki, bu universal



cərrahiyyə qurğusu dünyanın hər hansı bir nöqtəsində pult arxasında oturan həkimin xəstə üzərində əməliyyat aparmasına imkan verir. ABŞ-ın Intuitive Surgical Inc şirkəti tərəfindən hazırlanan Da Vinci tipli robotlaşdırılmış cərrahi komplekslər vasitəsi ilə hər il 350 mindən çox əməliyyat həyata keçirilir.

AzərTAc Rianovosti informasiya agentliyinə istinadla xəbər verir ki, Moskvada dörd Da Vinci robotunun olduğunu bildirən qurumun mətbuat katibi Elina Nikolayeva onların yüksək dəqiqlik tələb edən cərrahiyyə əməliyyatları üçün nəzərdə tutulduğunu deyib.

## Etibarsız sayılır

Tibbi profilaktika fakültəsinin III kurs, 602$^{b}$ qrup tələbəsi Quliyeva Aytən Mahir qızının adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin IV kurs, 1130$^{b}$ qrup tələbəsi Sayadzadə Mirülvi Natiq oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Aslanov Tofiq Mirsəməd oğluna 1988-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən həkim-stomatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, 2$^{b}$ qrup tələbəsi Məmmədov Rəşad Şərbət oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, 195$^{b}$ qrup tələbəsi Meisam Gonjeh Torabın adına verilmiş qiymət kitabçası üçün etibarsız sayılır.

Mürsəlov Aydın Mürsəl oğluna Azərbaycan Tibb Universiteti tərəfindən 1993- cü ildə terapiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin III kurs, 801$^{b}$ qrup tələbəsi Səfərova Əsmər Niyaz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 195